**Azərbaycan Respublikası və Paraqvay Respublikası arasındakı münasibətlər**

**Diplomatik əlaqələrə dair qısa məlumat:**

Azərbaycan Respublikası və Paraqvay Respublikası arasındakı diplomatik əlaqələr 1994-ci ilin 3 noyabr tarixində qurulmuşdur. Azərbaycan Respublikasının Argentinadakı Səfirliyi həmçinin Paraqvayda akkreditə olunub.

**Siyasi sahədə əməkdaşlıq:**

**10 sentyabr 2015-ci ildə** Paraqvay Milli Konqresində *"Azərbaycan Respublikası və Ermənistan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək"* adlı bəyanat qəbul edilmişdir. Bəyanatda Dağlıq Qarabağ bölgəsi Azərbaycanın ərazisi olaraq qeyd olunmuş, ölkəmizin ərazisinin Ermənistan tərəfindən işğalı göstərilmiş, münaqişənin qurbanı olmuş insanlara dərin kədər ifadə edilmiş və münaqişə tərəflərinə BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının işğal faktı ilə bağlı qəbul etdiyi qətnamələrə əməl edilməsi haqda çağırış edilmişdir.

**29 sentyabr 2015-ci il** tarixində AR XİN Elmar Məmmədyarov BMT-nin Baş Assambleyasının 70-ci sessiyasında iştirak etmək məqsədilə Nyu-Yorka səfəri çərçivəsində Paraqvay Respublikasının xarici işlər naziri Eladio Loizaga ilə görüşmüşdür.

**Parlamentlərarası əlaqələr:**

**24 iyul, 2014-cü ildə** Paraqvay Milli Konqresində Azərbaycan ilə parlamentlərarası münasibətlər üzrə dostluq qrupu yaradılmışdır.

**5-6 mart 2015-ci ildə** Azərbaycan Respublikası Milli Məclisinin üzvlərindən ibarət nümayəndə heyəti Paraqvay Respublikasında səfərdə olmuşdur.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası və Paraqvay Respublikası arasında 1 sənəd imzalanmışdır.

***Son yenilənmə tarixi: 11.02.2016***